**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**VÜSALƏ İBRAHİM QIZI ZAHİROVA**

# DÖVLƏTİN XARİCİ SİYASƏTİNDƏ HƏRBİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ

İxtisas 5901.01 – Beynəlxalq münasibətlər

***Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın***

**AVTOREFERATI**

**BAKI – 2014**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbərlər: **İ.M.Musa**
tarix elmləri doktoru, professor

**K.C.Məmmədov**
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent

Rəsmi opponentlər: **G.İ.İbrahimova**
siyasi elmlər doktoru

**İ.M.Məmmədova**
tarix üzrə fəlsəfə doktoru

Aparıcı təşkilat: **Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrası**

Müdafiə Azərbaycan respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 17 mart 2014-cü iltarixli 68 saylı əmri ilə 5901.01- Beynəlxalq münasibətlər ixtisası üzrə siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yaradılmış FD.01.242 Müvəqqəti Dissertasiya Şurasının "_05__" __12_______ 2014-cü il tarixli iclasında saat "____" da keçiriləcək.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, H.Cavid pr. 31 (Akademiya şəhərciyi)

Dissertasiya işi ilə AMEA İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutunun Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" ___________ 2014-cü il tarixində göndərilmişdir.

**FD.01.142 saylı Müvəqqəti**
**Dissertasiya Şurasının elmi katibi,**
**s.e.f.d.** **R.Ə.Hüseynov**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Hərbi amillər hər zaman milli təhlükəsizliyə dair baxışlarda aparıcı mövqeyə malik olmuşdur və "hərbi təhlükəsizlik" və ya milli müdafiə ən azı son dövrlərədək demək olar ki, "təhlükəsizlik" ilə sinonim kimi nəzərdən keçirilmişdir. Hərbi və əlaqədar terminlər lüğətində təhlükəsizlik anlayışının mənalarından birini "hərbi təhlükəsizliy"in təyini kimi qəbul edirlər: təhlükəsizlik - dövlətin təcavüzkar fəaliyyətdən və onun təsirlərindən qorunmasını təmin edən tədbirlər görülməsi və mühafizəsi vəziyyətidir.[1]

Qloballaşma, beynəlxalq əmək bölgüsünün genişlənməsi, elmi-texnoloji inkişaf və bir sıra digər amillər təhlükəsizlik məsələsinin şaxələnməsinə səbəb oldu. Hazırda dövlətin təhlükəsizliyi yalnız onun fiziki təhlükəsizliyindən ibarət deyil və daha geniş məna kəsb edib, ən müxtəlif sahələri əhatə edir. Bu dəyişiklik "milli təhlükəsizliyi sırf hərbi dairədən çıxarır və məsələyə militarizm də daxil olmaqla digər amilləri də cəlb edir."[2] Belə vəziyyətdə, hərbi təhlükəsizliyin milli-dövlət təhlükəsizliyinin xüsusi qolu kimi fərqləndirilməsi və dövlətin bu sahədə xüsusi fəaliyyətinin öyrənilməsinin əhəmiyyəti böyükdür.

Hərbi təhlükəsizlik millətin fiziki təhlükəsizliyini, iqtisadi maraqlarını və dəyərlərini xarici hücumlardan müdafiə etməyi nəzərdə tutur. Lakin hesab edirik ki, məsələyə belə yanaşma səthi və məhdud xarakterlidir. Daha geniş baxış çərçivəsində nəzərdən keçirdikdə məlum olur ki, hərbi təhlükəsizlik dövlətin özünü müdafiə etmək və hərbi təcavüzün qarşısını almaq bacarığı ilə bərabər, həm də maraqlarını təmin etmək üçün silahlı qüvvədən səmərəli və uğurlu şəkildə istifadə edə bilmək imkanıdır. Sonuncu, yəni hərbi gücün xarici siyasətin məqsədlərinə nail olmada bir vasitə olması hərbi təhdidlərin hər zaman aktual olacağına işarə edir. Belə ki, dövlətlər hər zaman maraqlara sahibdir və həmin maraqları reallaşdırmaq üçün müxtəlif üsullara əl atmağa hazırıdırlar.

Bu baxımdan xarici siyasət hər zaman milli maraqlara və onların reallaşdırılmasına yönəlmiş təhdidlərin aradan qaldırılmasında mühüm alətlərdən biri olmuşdur. Dəyişən geosiyasi mühitdə meydana gələn riskləri və təhdidləri nəzərə alan dinamik xarici siyasət yeritmək lazımdır.

---

[1] Dictionary of Military and Associated Terms (as ammended through 15 January 2012) US Department of Defence, The Joint Publication 1-02, Acessed 8 November 2010, s. 261

[2] Paleri P. National Security: Imperatives and Challenges, New Delhi: Tata MacGraw-Hill , 2008, s. 9

Azərbaycan üçün bu siyasətin əsasını Ulu öndər Heydər Əliyev qoymuşdur. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkənin ərazi bütövlüyünün təmini xarici siyasətin başlıca prioriteti, milli strategiyanın əsas müddəası kimi qəbul edildi. Onun beynəlxalq tədbirlərdə çıxışında münaqişənin həlli və ərazi bütövlüyünün təmini mütləq yer alırdı.[3]

Nəzərə almaq lazımdır ki, müasir dövrdə güc tətbiqinin normativ və texnoloji məhdudiyyətləri ondan istifadədə ciddi əngələ çevrilmişdir. Belə ki, gücdən istifadədə dövlətlər artıq əvvəllər olduğu kimi azad deyillər və beynəlxalq müstəvidə kifayət qədər təzyiqlərlə üzləşirlər. Digər tərəfdən elmi-texnoloji inkişafın nəticələri dövlətləri gücdən istifadə zamanı ciddi bir dilemma qarşısında qoyub: hərbi texnoloji tərəqqi və silahların dağıdıcı imkanları elə bir səviyyəyə çatıb ki, artıq gücün tətbiqinin gətirdiyi fəlakət yalnız onun obyektini deyil, həmçinin onun subyektini, böyük bir coğrafi dairəni və hətta bütün dünyanı da bürüyə bilər. Odur ki, dövlətlər xarici siyasətdə gücün fiziki tətbiqindən başqa, onun digər istifadə formalarının axtarışına çıxıblar.

Hərbi təhlükəsizliyin dəyişən təbiətinin bir göstəricisi də təhdidlərin və onların subyektlərinin dəyişən xarakteridir. "Müharibə artıq bizim hər zaman güman etdiyimiz təsisatlar tərəfindən aparılmır. Müasir müharibələrdə döyüş iştirakçıları artıq bizim hər zaman inandığımız məqsədlər uğrunda döyüşmürlər. Nəhayətində, onlar artıq bizim standart qəbul etdiyimiz qaydada döyüşmürlər."[4]

Dissertasiyada dövlətin hər zaman aktuallığını saxlayan hərbi təhlükəsizlik problemləri ilə xarici siyasi fəaliyyəti arasındakı əlaqələrin əsasları öyrənilir. Məlum olduğu kimi dövlətin hərbi təhlükəsizlik sektoru kifayət qədər geniş bir sahədir və ən müxtəlif fəaliyyət formalarını ehtiva edir. Günümüzdə "dövlətin hərbi təhlükəsizliyinin təmin olunması üçün onun iqtisadi inkişafı, hərbi və texnoloji bazası, cəmiyyətdəki siyasi münasibətlər sistemi və cəmiyyətin demokratikləşmə dərəcəsi, habelə mövcud beynəlxalq münasibətlər sistemi və dünya düzəninin strukturundakı dəyişikliklər, müxtəlif inteqrasiya birlikləri nəzərə alınmalıdır."[5] Dissertasiya işində hərbi təhdidlərin qarşısının alınması və zərərsizləşdirilməsinə yönəldilmiş xarici siyasi fəaliyyətə ayrı-ayrı amillərin təsirinin müəyyən edilməsinə cəhd edilir. Bu, dövlətlərin aqressiv

---

[3] Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış, Bakı: Qanun, 2013, s. 189
[4] Creveld M.V. The Transformation of War, New York: The Free Press, 1991, s. ix
[5] Макаренко И.К., Морозов В.С. Военная безопасность государства: сущность и пути обеспечения на современном этапе, М:РАГС, 2007, s. 36

fəaliyyətinin səbəblərinin müəyyən edilməsi və bununla da hərbi təcavüzkarlığın qarşısının alınmasında əhəmiyyətli ola bilər.

Digər tərəfdən, xalqların dövlətlərin xarici siyasətinə dair qərar qəbulu prosesində artan rolu dövlətin siyasi xəttində öz təsirini göstərir. O, liberalizmə daha yaxındır, demokratik ruhludur və özünəməxsus keyfiyyətləri ilə seçilir. Dissertasiya bu tendensiyanın dövlətin beynəlxalq arenadakı fəaliyyətində özünü necə büruzə verdiyini də təhlil edir.

Dissertasiya mövzusunun digər bir aktuallığı diplomatiyanın dəyişən təbiəti fonunda hərbi təhdidlərin zərərsizləşdirilməsi istiqamətində həyata keçirilən diplomatik fəaliyyətin tədqiqi və sistemləşdirilməsi zərurətindən irəli gəlir. Ümumiyyətlə, diplomatiyanın dövlət siyasətinin həyata keçirilməsində roluna dair fundamental araşdırmalara az rast gəlinir. “Dünya siyasətinin heç bir sahəsi nəzəriyyə və təcrübə arasında diplomatik dövlətçilikdəki qədər boşluğu sahib deyil”[6] və istər beynəlxalq münasibətlər nəzəriyyəsi, istərsə də, diplomatiya özü bu boşluqdan əzab çəkir. Bunun müqabilində, dissertasiyada diplomatiyanın hərbi təhlükəsizliyin təmin olunmasında rolu və fəaliyyətinin formaları öyrənilmişdir.

Dağıdıcı qüvvələrin böyüməsi, onların subyektləri arasında qeyri-dövlət aktorlarının sayının artması təhlükəsizlik probleminin təcili həll yollarının tapılmasını labüd edir. Dövlətlər hərbi təhdidlərin zərərsizləşdirilməsi və onların mənbəyinin aradan qaldırılması üçün əməkdaşlığın artan əhəmiyyətini dərk edirlər. Xüsusilə, yeni təhdidlərin aradan qaldırılması dövlətlərin əməkdaşlığını zəruri edir. Diplomatiya itirməyə heç nəyi olmayan, heç bir fundamental məqsədə, vahid fəaliyyət strategiyasına, əraziyə, xalqa sahib olmayan, üzərində heç bir hədə, məcburiyyət mexanizminin təsirə malik olmadığı bir aktorla – terrorçuluqla üz-üzə qalıb və onunla əməkdaşlığın heç bir perspektivi yoxdur. Lakin diplomatiya, həmçinin bugün terrorçuluq ilə mübarizənin yeganə alətidir və onun heç bir əvəzedicisi yoxdur.

Dissertasiya işi Azərbaycan Respublikasının təhlükəsizlik məsələlərinin həlli baxımından da böyük elmi-nəzəri və siyasi-praktiki aktuallıq kəsb edir. Ermənistan Respublikası tərəfindən ərazi bütövlüyü və ərazisi üzərində tam suverenlik hüququ pozulmuş Azərbaycan artıq iyirmi ildir ki, problemin dinc üsullarla həlli istiqamətində fəaliyyət göstərir. Dövlətin təhlükəsizliyini təmin etmək üçün Azərbaycanın hərbi-iqtisadi və

---

[6] Steiner B.H. Diplomacy and International Theory // Review of International Studies, 2004, s. 493

siyasi-diplomatik potensialı ardıcıl, sistemli və məqsədyönlü şəkildə istifadə olunur. Azərbaycanın aktiv diplomatik fəaliyyətinə rəğmən real olaraq heç nə əldə etmək mümkün olmur. Bu, Azərbaycan diplomatiyasının qarşısında nə qədər çətin bir vəzifənin durduğunu və paralel olaraq iqtisadi və hərbi təzyiq vasitələrinin gücləndirilməsinə ehtiyac olduğunu göstərir. Prezident İlham Əliyev Bakıda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin kursantaları qarşısında 2012-ci ildə çıxışı zamanı deyib: "... əfsuslar olsun ki, müasir dünyada beynəlxalq hüquq normaları pozulur. Biz bu mənzərəni görürük. Bu pozuntular getdikcə daha da geniş vüsət alır. Belə olan halda, əlbəttə biz də görürük ki, güclü olmasan, sənin hüquqların tapdanacaqdır."[7]

Digər tərəfdən, Azərbaycan həmçinin XXI əsrin yeni hərbi təhdid forması olan terrorçuluqdan dəfələrlə əzab çəkmiş, terror qruplarının mərkəzləri və onların aktiv olduğu ərazilərin yaxınlığında yerləşən bir ölkə, eləcə də terror ilə beynəlxalq mübarizə tədbirlərinin fəal iştirakçısıdır. Bu baxımdan Azərbaycanda terror ilə mübarizə tədbirlərinin elmi-siyasi tədqiqi böyük əhəmiyyət və aktuallıq kəsb edir.

**Problemin elmi araşdırılma səviyyəsi.** Müharibə və sülh məsələləri daima əsas araşdırma mövzularından biri olmuş, hərb elmi və işinin araşdırılması sahəsində xeyli sanballı əsərlər yazılmışdır. Lakin müharibə və sülh mövzusunun ayrıca tədqiqat sahəsi kimi formalaşması İkinci Dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Proses öz başlanğıcını isə iki dünya müharibəsi arasındakı dövrdən götürür. XX əsrin 50-60-cı illərində təhlükəsizlik məsələlərinin araşdırılması sahəsində tədqiqatların çoxalması və məhz həmin mərhələnin sonunda bu sahənin beynəlxalq münasibətlər elminə tamamilə daxil olması müşahidə edilir. Müasir təhlükəsizik araşdırmaları beynəlxalq münasibətlər elminin bir istiqaməti, strateji tədqiqatlar isə təhlükəsizlik araşdırmalarının bir sahəsi kimi qəbul edilir.

Təhlükəsizlik məsələlərinə dair çağdaş araşdırmalar əsasən, iki coğrafi məktəbdə aparılır: ABŞ və Avropa məktəbləri. Onların fərqi isə özünü araşdırmaların oynadığı rolda və dövlət siyasəti ilə qarşılıqlı əlaqəsində göstərir. ABŞ məktəbində siyasətçilərin düzgün seçim etmələri üçün nəzəri araşdırmalar aparılır və siyasi müşavirlik və akademik tədqiqatlar fərqli, müstəqil sahələrdir. Avropada isə, əsasən mövcud

[7] Prezident, Ali Baş Komandan İlham Əliyevin nitqi, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin 2012-ci il buraxılışına həsr olunmuş mərasim, 25 iyun 2012-ci il, Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, http://www.president.az/articles/5252

siyasəti və təhlükəsizlik məsələlərini tənqid edən nəzəriyyələr üstünlük təşkil edir. Burada təhlükəsizlik konsepsiyası debatların tərkib hissəsidir və onlarda ən çox siyasi məsuliyyət, analitik və nəzəri seçimlər müzakirə olunur.

Beynəlxalq münasibətlər elmində mövcud nəzəri məktəblər araşdırdığımız problemə özünəməxsus şəkildə yanaşmış və yer ayırmışdır. Məsələnin daha geniş araşdırılması beynəlxalq münasibətlərə dair siyasi realizm məktəbinə məxsusdur. Məktəbin nümayəndələri H.J.Morgentau, E.H.Karr, T.C.Şellinq, B.Byuzan, R.Aron, K.N.Uolts, C.Merşaymer, Ç.Qlaser, R.Cervis, S.V.Evera, C.F.Kennan, C.Snayder, R.C.Art, S.Uolt, R.Gilpin, G.Rouz, C.A.Vasques, H.Kisencervə başqaları öz əsərlərində dövlətlərin beynəlxalq münasibətlər müstəvisində qarşılaşdığı rəqabət və münaqişə vəziyyətini araşdırmış, qarşıdurmalardan xilas yollarının əsaslarını işləyib hazırlamışlar.[8]

Birinci və İkinci Dünya müharibələri arasında bir sıra dövlət xadimləri müharibənin siyasi bir alət kimi aradan qaldırılmasını qarşıya məqsəd qoydular. Bu məsələni öyrənmək üçün maliyyə yardımları ayırılmasına və sülh qruplarının yaradılmasına başlandı. A.A.Luis, M.D.Doyl, Ç.Leyn, C.S.Nay və habelə, sonralar liberalizm adlandırılan idealizm məktəbinin təmsilçiləri sülh və münaqişə məsələlərini qarşılaşdırılmış, dövlətlərarası münaqişələrin dinc həlli yollarını tədqiq etmişlər. [9]

---

[8] Арон Р. Мир и война между народами, перевод с французского, под общей редакцией В.И.Даниленко, Москва: NOTA BENE, 2000, 880 с., Киссенджер Г. Дипломатия, перевод с англ. В.В.Львова, Москва, Ладомир, 1997, 848 с., Buzan B. People, States, and Fear. An Agenda for International Security Studies in the Post-Cold War Era, 2nd edition, Colorado: Lynne RiennerPublishers Inc., 1991, 416 s., Evera S.V. Causes of War: Power and the Roots of Conflict, Ithaka and London: Cornell University Press; 1 edition, 2013, 278 p., Glaser Ch.L. Rational Theory of International Politics: The Logic of Competition and Cooperation, Princeton: Princeton University Press,2010,314p., Mearsheimer J.J. Tragedy of Great Power Politics, New York: Norton, 2001, 576 p., Morgenthau H.J. In Defense of the National Interest, New York: University Press Of America, 1982, 306 p., Vasquez J.A. The War Puzzle, Cambridge Studies in International Relations (Book 27) Cambridge: Cambridge University Press, 1993, 396 p. Waltz K.N. Theory of International Politics, 1st edition, New York: McGraw Hill, 1979, 251 p.

[9] Doyle M.W. Liberalism and World Politics // The American Political Science Review, 1986, vol. 80, No. 4 (Dec.), pp. 1151-1169, Layne Ch. Kant or Cant: The Myth of the Democratic Peace // International Security,1994, vol. 19, No.2 (Autumn), pp. 5-49, Luce A.A. Sense without matter, New York: Greenwood Press, 1973, 165 p., Nye J. S.Soft Power: The Means to Success in World Politics, New York: Public Affairs, 2005, 208 p.

Əsas təmsilçilərindən biri A.Vendt olan konstruktivizm məktəbinin nümayəndələri – N.Onuf, R.K.Eşli, F.Kratoçvil və b. məsələyə bir qədər fərqli tərəfdən yanaşaraq, dövlətə xas olan xarakterləri və dövlətlərin bölüşdüyü ortaq dəyərləri gündəmə gətirdilər və bu nöqteyi-nəzərlərdən nəticə çıxarmağa çalışdılar.

Diplomatiya institutunun daha geniş araşdırılmasını aparmış ingilis siyasi məktəbinin təmsilçiləri H.Buterfild, M.Vayt və A.Uotson diplomatiyanı beynəlxalq münasibətlərin mərkəzinə qoymuş və müstəqil təsisat kimi onun müxtəlif aspektlərini öyrənmiş, habelə münaqişələrin həllində və təhdidlərin zərərsizləşdirilməsində diplomatik fəaliyyətin yeri və rolunu müəyyən etmişlər. Yeni tədqiqatlar zamanı isə B.Vayt, Ç.Yönson, B.Ştayner və b. diplomatiyanı bir təhlükəsizlik aləti kimi tədqiq etmişlər. Bir qrup müəllif isə – P.C.Peterson, N.Snou ictimai diplomatiyanın dövlət və beynəlxalq siyasətdəki artan rolundan bəhs edirlər. [10]

Müasir dövrdə C.A.Kreyq, A.Corc, C.S.Qrey, P.Fiver, R.Peyp, C.S.Nay, R.O.Koheyn, K.Knor, A.S.Vayner, D.Boldvin və digər müəlliflər araşdırmalarında güc və diplomatiya məsələlərini geniş və yaradıcı şəkildə nəzərdən keçirmişlər.[11] Yeni hərbi təhdidlərin öyrənilməsinə dair

---

[10] Butterfield H., Wight M. Diplomatic Investigations: Essays in the Theory of International Politics, Cambridge, MA: Harvard University Press, 1968, 277 p., Jönsson Ch., Hall M. Essence of Diplomacy, London: Palgrave Macmillan, 2005, pp. 206, Peterson P.G. Public Diplomacy and the War on Terrorism // Foreign Affairs, 2002, 81:5 (Sept./Oct.), pp. 74-94, Snow N. Rethinking Public Diplomacy / Routledge Handbook of Public Diplomacy, (ed.) Snow, Nancy and Taylor, Philip M., London: Taylor & Francis, 2008, (388 p.) pp.3-11, Steiner B.H. Diplomacy and International Theory // Review of International Studies, 2004, 30, pp. 493-509, Watson A. Diplomacy: The Dialogue Between States, London: Routledge, reprint edition, 1984, 239 p., White B. Diplomacy / The Globalisation of World Politics: An Introduction to International Relations, (ed s.) Baylis, John and Smith, Steve, 5 edition, New York: Oxford University Press, 2011, pp. 387-432 251-253, White B. The Concept of Detente // Review of International Studies, 1981, 7, pp.165-171

[11] Baldwin D.A. Power Analysis and World Politics: New Trends versus Old Tendencies // World Politics, 1979, vol. 31, No.2 (January), pp. 161-194, Baldwin D.A. The concept of security // Review of International Studies, 1997, 23, pp. 5-26, Craig G.A., George A.L Force and Statecraft: Diplomatic Problems of Our Time, New York: Oxford University Press, 1995, 304 p., Feaver P.D. Armed Servants: Agency, Oversight, and Civil-Military Relations, Cambridge: Harvard University Press, 2005, 400 p., Gray C. S. Modern Strategy, New York: Oxford University Press, 1999, 432 p., Gray C. S. War, Peace and International Relations - An Introduction to Strategic History, Abingdon and New York: Routledge, 2007, 392 p., 105., Keohane R.O. After Hegemony: Cooperation and Discord in the World

müddəalara isə daha çox B.Şurman, M.Kaldor, H.Münkler, M.V.Kreveld, C.M.Luts, B.I.Luts və b. araşdırmalarında rast gəlinir.[12]

Azərbaycanda da mövzunun tədqiqinə dair nəzəri və siyasi-praktiki əhəmiyyətli araşdırmalar aparılmışdır. Bu istiqamətdə sistemli araşdırmalar Ə.M.Həsənova məxsusdur. Müəllifin istər beynəlxalq münasibətlər və təhlükəsizlik məsələlərinin elmi-nəzəri araşdırılması, istərsə də elmi-nəzəri müddəaların xüsusilə Azərbaycan Respublikasının xarici siyasəti və təhlükəsizlik siyasəti kontekstində tətbiqinə həsr olunmuş çoxsaylı əsərləri var.[13]

Dövlətin xarici siyasəti və təhlükəsizlik məsələlərinin fundamental şəkildə elmi-praktiki əlaqələndirilməsini C.Eyvazovun "Qafqazın təhlükəsizliyi və Azərbaycan Respublikasının inkişaf sabitliyi" ("Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики")[14] kitabında müşahidə edirik. Müəllif mövcud siyasi nəzəriyyələr çərçivəsində Azərbaycan Respublikasının mili təhlükəsizlik və Qafqaz regionunun təhlükəsizlik məsələlərini təhlil edir.

İ.M.Musanın Azərbaycanın xarici siyasəti haqqında yazılmış üç cildlik əsəri[15] dövlətin hərbi təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirdiyi siyasi-diplomatik fəaliyyətin praktiki təhlili baxımından böyük əhəmiyyət kəsb edir. Belə ki, müəllifin Azərbaycanın timsalında dövlətin beynəlxalq münasibətlərində hərbi təhlükəsizliyi təmin edə bilmək məqsədilə fəaliyyətini sistemli şəkildə təhlil və təsviri elmi-nəzəri müddəaların əsaslandırılması baxımından əlverişlidir.

---

Political Economy, Princeton: Princeton University Press, 1984, 290 p., 132., Nye J. S.Soft Power: The Means to Success in World Politics, New York: Public Affairs, 2005, 208 p.,

[12] Creveld M.V. On Future War, London: Brassey's, 1991, 254 p., Creveld M.V. The Transformation of War, New York: The Free Press, 1991, 254 p., Kaldor M. New and Old Wars: Organized Violence in a Global Era, Stanford, CA: Stanford University Press, 1999,192 p., Lutz J.M., Lutz B.I. Terrorism: Origin and Evolution, New York: Palgrave, 2005, 240 p., Münkler H. The New Wars, Cambridge: Polity, 2005, 180 p.,

[13] Həsənov Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti, Bakı: Letterpress, 2011, 440 s., Həsənov Ə.M. Geosiyasət, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı: Aypara-3, 2010, 604 s., Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı: Azərbaycan, 2005, 752 s.

[14] Эйвазов, Дж. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики, Баку-2004

[15] Musa İ.M. Azərbaycanın xarici siyasəti. Dərslik. Üç hissədə. Birinci hissə, Bakı: İqtisad Universiteti nəşriyyatı, 2001

Bir çox digər müəlliflərin – H.K.Hüseynova, A.N.Abbasbəyli, A.Ə.Rəcəbli, R.N.Vəlizadə, P.Q.Darabadi, V.B.Cəfərov, E.Nəsirov, E.Nəsibov araşdırmalarında da təhlükəsizlik və xarici siyasət məsələlərinin tədqiqinə dair müddəalara, həmçinin bu istiqamətdə diplomatik fəaliyyətin ayrı-ayrı xüsusiyyətlərinə dair baxışlara geniş yer verilmişdir. [16]

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqatın metodoloji əsasını analiz, sintez, ümumiləşdirmə, müşahidə, tarixilik, müqayisəli və sistemli təhlil təşkil etmişdir. Dövlətin hərb təhlükəsizlik mühitinin xarici siyasi elementləri araşdırılarkən, hərbi təhlükəsizlik mühiti analiz edilmiş, onun sistemli təhlili aparılaraq, xarici siyasətin bu mühitdəki yeri təyin edilmişdir. Xarici siyasət və hərbi təhlükəsizlik arasında əlaqələrin əsasları öyrənilərkən isə strateji araşdırmalar, hərbi təhdidlər, daxili siyasət, beynəlxalq sistemlər, beynəlxalq təhlükəsizlik tədbirləri və diplomatiyaya həsr olunmuş müxtəlif nəzəri tədqiqatlar öyrənilmiş, analiz edilmiş, sistemli şəkildə ümumiləşdirilərək müvafiq nəticələr əldə olunmuşdur.

Hərbi təhlükəsizliyin təmin edilməsində diplomatiyanın rolu müəyyən edilərkən isə dövlətin xarici siyasəti və beynəlxalq münasibətlər elminə dair müxtəlif ədəbiyyatlara "səpələnmiş" fikir, müddəa və hipotezalar sistemləşdirilmiş, müşahidələrdən də istifadə olunaraq, diplomatiya institutunun bu sahədə fəaliyyətinin istiqamətləri, vəzifələri, prinsipləri və formaları təhlil edilmişdir.

**Tədqiqatın mənbəşünaslıq bazası**. Dissertasiyanın yazılmasında istifadə olunan ədəbiyyatları əsasən iki qrupa ayıra bilərik: elmi-nəzəri mənbələrə və siyasi-praktiki mənbələr. Elmi nəzəri mənbələr kimi beynəlxalq münasibətlər və politologiya sahəsində aparılmış tədqiqatların elmi müddəalarından istifadə olunmuşdur. Bu zaman Avropa və Amerikada, həmçinin Azərbaycanda çap olunmuş çoxsaylı ədəbiyyatlardan istifadə edilmişdir. Siyasi-praktiki mənbələr kimi isə dövlətlərin

---

[16] Abbasbəyli A.N., Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi, Bakı: Mütərcim, 2007, 208 s., Abbasbəyli A.N., Cəfərov V. Diplomatik protokol, Bakı: ADPU nəşriyyatı, 2004, 206 s., Abbasbəyli A.N., Darabadi P.Q., İbrahimov Ə.G. Konfliktologiya. Dərslik. Bakı: BDU nəşriyyatı, 2006, 251 s., Rəcəbli A.Ə. Milli mənafelər və beynəlxalq təhlükəsizlik: (xarici siyasət davranışının təhlili). Bakı: Kitab aləmi, 2004, 400 s., Nəsibov E.M. Beynəlxalq münasibətlər və dövlətlərin güclərinə görə təsnif olunmalarının əsasları (qlobal və regional miqyasda sülhün təmin edilməsində dövlət gücünün rolu – təsiredici amil kimi), Bakı: Elm və təhsil, 2013, 320 s. Nəsibov E.M. Gələcək dünya düzəni və geosiyasi mənzərə. Siyasi proqnozların əsasları. Ümumi hissə: I kitab, Bakı: Elm və təhsil, 2013, 544 s.

qanunvericilik bazası, beynəlxalq təşkilatların sənədləri və ayrı-ayrı siyasətçilərin fikirlərinə müraciət olunmuşdur.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Dissertasiyanın başlıca məqsədi dövlətin hərbi təhlükəsizlik mühitində xarici siyasətin yerinin və əhəmiyyətlik dərəcəsinin öyrənilməsi, bu iki sektor arasında əlaqələrin determinanatlarının və əsaslarının müəyyən edilməsi və təhlükəsizlik məsələlərinin dəyişən təbiəti fonunda bu iki sahə arasında əlaqələrdəki yeniliklərin tədqiqidir.

Qarşıya qoyulan məqsədlər nəzərə alınaraq, aşağıdakı konkret vəzifələrin icrasına cəhd edilmişdir:

– beynəlxalq münasibətlərə dair aparıcı nəzəriyyələrdə hərbi təhlükəsizlik məsələsinə aid müxtəlif baxışların müqayisəli təhlili və bu əsasda da xarici siyasətdə hərbi təhlükəsizliyin yeri ilə bağlı ümumiləşdirmələr aparılması;

– dövlət təhlükəsizliyinə hərbi təhdidlərin xarici siyasi elementlərinin təyin edilməsi və xarici hərbi təhdidlərin, həmçinin dünyada gedən proseslərin dəyişən təbiətinə müvafiq olaraq meydana gələn "yeni" təhdidlərin xarakterinin müəyyənləşdirilməsi;

– dövlətin hərbi təhlükəsizliyinin təminatı sisteminin nəzəri-elmi müddəalar əsasında ümumiləşdirilməsi və burada xarici siyasətin (diplomatiyanın) yerinin, onun sistemin digər elementləri ilə qarşılıqlı əlaqəsinin təyin edilməsi;

– xarici siyasət və hərbi təhlükəsizlik arasındakı əlaqələrin əsaslarından biri olaraq, dövlətin hərbi doktrinası və diplomatiya strategiyasını bir araya gətirən vahid siyasi xəttin təhlili və onun formalaşmasına təsir edən amillərin müəyyənləşdirilməsi;

– beynəlxalq sistemlərin xarakterinin dövlətin hərbi təhlükəsizlik mühitinə təsirinin və bu təsirin yeni dünya düzənindəki təzahür formalarının araşdırılması;

– dövlətlərin hərbi təhlükəsizliyi təmin etmək məqsədilə bir araya gələrək həyata keçirdikləri birgə tədbirlərin analizi və onların səmərəliliyinin və yeni tələblərə cavab verə bilmək imkanlarını dərindən nəzərdən keçirilməsi;

– dövlətin hərbi təhlükəsizliyinin təmin olunmasında diplomatiyanın rolunun açıqlanması və həmin rolun həyata keçirilməsi məqsədilə qarşıda duran vəzifələrin, habelə tələb olunan prinsiplərin tədqiq edilməsi;

– diplomatiyanın hərbi təhlükəsizliyin təmin olunması məqsədilə həyata keçirdiyi fəaliyyət formalarının, müasir silahların və təhdidlərin xarakterinə müvafiq olaraq, görülən işlərdəki dəyişikliklərin öyrənilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində dövlətin iki bir-birindən fərqli fəaliyyət sahələri – xarici siyasət və hərbi təhlükəsizlik məsələlərinin qarşılıqlı fəaliyyəti təhlil edilmişdir. Hərbi təhlükəsizlik məsələləri beynəlxalq münasibətlər nəzəriyyəsinin bir alt-tədqiqat sahəsi olanadək, yalnız hərbiçilər tərəfindən öyrənilirdi. Onun bir alt tədqiqat sahəsinə çevrilməsi isə elə bir dövrə təsadüf edirdi ki, hərbi təhdidlər aktuallığını "itirirdi" və hətta bəzən bu baxışa əsaslanaraq, hərbi təhdidlərin öyrənilməsinə diqqət ayrılmırdı. Odur ki, xarici siyasət və diplomatiya ilə hərbi təhlükəsizliyin birgə tədqiqinə həsr olunan araşdırmalara az rast gəlinir.

Fikrimizcə, tədqiqatın elmi yeniliyi öz ifadəsini aşağıdakı müddəalarda tapmışdır:

– hərbi təhlükəsizliyin yalnız hərbi təhdidlərin (və ya müharibə şəraitinin) olmadığı bir vəziyyət kimi deyil, həmçinin dövlətin xarici siyasətində məqsədlərinə nail olmaqda hərbi gücdən uğurlu istifadə forması kimi müəyyənləşdirilməsi;

– dövlətin hərbi təhlükəsizlik sisteminin nəzəriyyədə qüvvə və güc konsepsiyalarının ekvivalenti kimi dəyərləndirilməsi;

– dövlətin hərbi təhlükəsizlik və xarici siyasət fəaliyyəti sahələri arasındakı əlaqələrin əsasını təşkil edən amillərin dövlətin daxili vəziyyəti və siyasəti (maraqları, gücü, rejimi, liderlərin şəxsi keyfiyyətləri), beynəlxalq sistemin xarakteri və hərbi təhdidlərin zərərsizləşdirilməsi məqsədilə dövlətlərarası münasibətlərdə həyata keçirilən tədbirlər kimi ayrılaraq müəyyən edilməsi;

– hərbi təhlükəsizliyin təmin olunmasında dövlətin diplomatik fəaliyyətinin xüsusiyyətlərinə dair araşdırmaların nəticələrinin sistemləşdirilməsi və konkretləşdirilməsi.

**Dissertasiyanın praktiki əhəmiyyəti.** Elmi araşdırmanın müddəaları, materialları və nəticələri beynəlxalq münasibətlərə, təhlükəsizlik məsələlərinə və habelə, humanitar-siyasi elmlərə həsr olunmuş tədqiqat işlərinin yazılmasında faydalı ola bilər. Dissertasiyanın elmi-nəzəri müddəalarının və materiallarının beynəlxalq münasibətlər nəzəriyyəsinə, dövlətin xarici siyasət fəaliyyətinə və hərbi təhlükəsizlik problemlərinə aid dərslik, dərs vəsaiti və digər ümumiləşdirilmiş əsərlərin hazırlanması üçün müəyyən əhəmiyyəti var. Elmi-pedaqoji fəaliyyətdə, ali

və orta ixtisas məktəblərinin beynəlxalq münasibətlər, politologiya, tarix və jurnalistika fakültələrində xüsusi kursların oxunmasında, seminarların keçirilməsində və diplom işlərinin yazılmasında da dissertasiyanın müddəalarından istifadə edilə bilər.

Dissertasiyanın materialları və nəticələri habelə, hərbi və xarici siyasət üzrə doktrinal istiqamət və normaların hazırlanmasında, milli təhlükəsizliyə hərbi təhdidlərin müəyyənləşdirilməsi, həmçinin onların zərərsizləşdirilməsi məqsədilə yürüdülən diplomatik xəttinin seçilməsi işi üçün də faydalıdır. Ayrı-ayrı dövlətlər və beynəlxalq qurumlar arasında müvafiq əməkdaşlığın həyata keçirilməsində, xarici siyasəti və hərbi təhlükəsizliyi həyata keçirən orqanların, onların müxtəlif bölmələrinin fəaliyyətində və digər sahələrdə də bu dissertasiya işinin materiallarına müraciət etmək olar.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Bakı Dövlət Universitetinin Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasında yerinə yetirilmiş və burada müzakirə edilərək müdafiəyə məsləhət görülmüşdür. Dissertasiya işinin əsas məzmunu doktorantın illik məruzələri və çap etdirdiyi 8 elmi məqalədə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, üç fəsil, səkkiz paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində tədqiq olunan mövzunun aktuallığı əsaslandırılmış, araşdırılma səviyyəsi müəyyən edilmiş, məqsəd və vəzifələri təyin edilmiş, tədqiqatın nəzəri-metodoloji əsasları, mənbəşünaslıq bazası, elmi yeniliyi və praktiki əhəmiyyəti haqqında məlumat verilmişdir.

Dissertasiyanın birinci fəsli "**Dövlətin xarici siyasəti və hərbi təhlükəsizliyi: nəzəri aspektlər**" adlanır. Üç paraqrafdan ibarət bu fəslin yazılmasında məqsəd dövlətin xarici siyasət sistemin hərbi təhlükəsizliyin və hərbi təhlükəsizlik sistemində xarici siyasətin yerini müəyyən etməkdir. Bunun üçün ilk növbədə fəslin **"Beynəlxalq münasibətlərdə hərbi təhlükəsizlik məsələsinə dair nəzəri baxışlar"** adlanan birinci paraqrafında beynəlxalq münasibətlərə dair mövcud nəzəri məktəblərdə hərbi təhlükəsizlik məsələsinə münasibət tədqiq olunur. Nəzəri ədəbiyyatların əksəriyyətində təhlükəsizlik probleminə iki yanaşma konsepsiyası mövcuddur. Bunlar güc və sülh konsepsiyalarıdır. Məsələyə

güc nöqteyi-nəzərindən yanaşanlar beynəlxalq münasibətlərin realizm məktəbinin nümayəndələrinin fikirlərindən qaynaqlanırlar. Məsələyə sülh nöqteyi-nəzərindən yanaşanlar isə daha çox idealist məktəb ilə əlaqəlidirlər. Araşdırmalarda fərqli yanaşmaların əsasında həm də məsələnin sistemlər, yoxsa dövlətlər səviyyəsində nəzərdən keçirilməsi durur. Sistemlərlə bağlı nəzəriyyələr müxtəlif dövlətlərin aralarında fərqlərə baxmayaraq, eyni cür davranması səbəblərini öyrənir. Əksinə dövlət səviyyəsində olan nəzəriyyələr isə müxtəlif dövlətlərin bir sistemdə yer almalarına rəğmən, hansı səbəbdən müxtəlif formada davrandıqlarını izah edir.

Hərbi təhlükəsizliyin araşdırılmasında ən geniş yanaşma beynəlxalq münasibətlərə dair siyasi realizm nəzəriyyəsinə məxsusdur. Məlum olduğu kimi, nəzəriyyədə vahid bir realizm xətti yoxdur. Dissertasiya işində də siyasi realizm nəzəriyyəsinin baxışlarına, məqsədlərinə, vəzifələrinə və metodologiyasına görə bir-birindən fərqlənən bir neçə istiqamətinin (klassik realizm, neorealizm, hücum realizmi, müdafiə realizmi, neoklassik realizm) məsələyə münasibəti araşdırılır.

Dissertasiya işində məsələyə münasibətdə nəzəri baxışları geniş şəkildə araşdırılan nəzəriyyələrdən biri də klassik siyasi nəzəriyyələrdən olan liberalizm və onun müasir alternativi olan neoliberalizmdir. Xüsusilə, son zamanlar demokratiya ideyalarının geniş yayılması və dövlətlərarası münasibətlərdə tez-tez istinad olunması liberal baxışlara marağı artırıb.

Daha sonra beynəlxalq münasibətlər və təhlükəsizlik məsələlərinə yanaşmada diqqəti ideyaların, fərdiliyin və qarşılıqlı fəaliyyətin əhəmiyyətinə yönəldən sosial konstruktivizmin müddəaları analiz edilir. Onu da qeyd etmək lazımdır ki, adı çəkilən nəzəri məktəblərin elmi-nəzəri müddəaları dissertasiya işinin bütün gedişatı, tədqiqi və nəticələrin əldə olunmasında istifadə və istinad olunmuşdur.

Fəslin ikinci paraqrafı **“Dövlət təhlükəsizliyinə hərbi təhdidlər”** adlanır. Burada dövlətin milli təhlükəsizliyinə hərbi təhdidlərin mahiyyət və xarakteri, mənbəyi və səbəbləri, həmçinin növləri və ən bariz forması olan müharibələr öyrənilir. Hərbi təhdid – dövlətin hərbi-siyasi münasibətlərin subyektlərindən biri tərəfindən ona qarşı siyasi və digər məqsədlərə nail olmaq üçün potensial hərbi güc tətbiq etmə ehtimalının mövcudluğunu xarakterizə edən vəziyyətdir. Hərbi təhdidin digər növ təhdidlərdən fərqi ondadır ki, o, potensial bir ehtimal deyil, tərəflərdən birinin hərbi güc tətbiq etməyə dair real niyyətidir. Hərbi təhdidlər dövlət təhlükəsizliyinə ən birbaşa və özünü açıq şəkildə hiss etdirən təhlükədir. Güc tətbiqi tez bir zamanda əsaslı arzuolunmaz dəyişikliklərə yol açdığı

üçün hərbi təhdidlər milli təhlükəsizlik məsələləri arasında ən yüksək priopitetliyə malikdir. Hərbi əməliyyatlar dövlətin bütün komponentlərinə təsir edə bilər və adətən edir. Bu, ölkənin hərbi gücünün vəziyyətini gərginləşdirir, zədələyir, parçalayır və ekoloji sistemi asanlıqla dağıdır. Bu hal təsisatların funksiyalarının pozulması və ya dağılması, dövlətin ideologiyasının parçalanması və sarsılması ilə nəticələnə bilər.

Hərbi təhdidlərin ən ümumi, bariz və klassik forması müharibədir. Klassik müharibə beynəlxalq, yəni dövlətlər arasında olan müharibədir. Bu müharibənin əsas tədqiqatçısı alman hərbi nəzəriyyəçisi Karl fon Klauzevitsdir. Klauzevitsin müharibənin nəzəri-fəlsəfəsi əsasları haqqında yazdığı "Vom Krieg" ("Müharibə haqqında") əsəri uzun dövr ərzində strateji tədqiqatların təməlində durub və müəyyən mənada durmaqda davam edir. Klauzevitsin təsvir etdiyi müharibə siyasi birliklər arasında aktual, məqsədyönlü və geniş həcmli silahlı münaqişədir.

1970 və bir qədər sonra 1990-cı illərdə bir sıra akademik dairələrdə belə bir fikir populyar idi ki, müharibə dövrü artıq bitmişdir və xarici siyasətdə hərbi gücdən istifadə dövlətlər üçün artıq cəlbedici deyil. Lakin "Soyuq müharibə"dən sonrakı tarixi mərhələ göstərdi ki, dövlətin hərbi təhlükəsizliyinin təmin olunmasında müharibə öz funksiyasını itirməyib.

Strateji araşdırmalarda bugün çox fəal olan bir qrup müəllif isə, müharibənin öz aktuallığını qoruduğu, lakin klassik müharibə konsepsiyasının özünün əhəmiyyətini itirdiyi və dəyişikliyə uğradığı fikri ilə çıxış edirlər. Bu fikrin tərəfdarları strateji araşdırmalara "yeni müharibələr" tezisini daxil ediblər. Müharibənin ən bariz yeni forması terrordur. Terror tərəfləri dövlət olan və güc tətbiqindən irəli gələn təhdidlərə mahiyyətcə fərqli yanaşma tələb edir.

Belə qənaətə gəlmək olar ki, hərbi təhdidlər təhlükəsizliyə dair düşüncələrdə hələ də nəzəri üstünlüyə malikdir və beynəlxalq siyasətdə anarxiya quruluşu qaldıqca, onlar da həyati maraq və əhəmiyyətlərini saxlayacaqlar. Hətta dövlətlərin nümayiş etdirdikləri ehtiyatlığa və münasibətlərin diplomatik protokol ilə pərdələnməsinə rəğmən, silahlanma yarışı, təhdidlər və əks təhdidlər hələ də bir norma olaraq qalmaqda davam edir.

Fəslin sonuncu paraqrafında (**"Milli təhlükəsizliyə hərbi təhdidlərin qarşısının alınması sistemi"**) dövlətin hərbi təhlükəsizlik sistemi öyrənilir və o, hərbi təhlükəsizliyin qarşısında duran məqsədləri həyata keçirmək üçün dövlətin sahib olduğu vasitələrdən və onlardan istifadə üçün müəyyən edilmiş üsullardan ibarət bir kompleks kimi

nəzərdən keçirilir. Təhdid ona görə mövcuddur ki, bu təhdidə qarşı zəiflik var və təhlükəsizlik sisteminin məqsədi bu zəifliyi aradan qaldırmaqdır. Bunun üçün ya zəiflik aradan qaldırılır, ya da təhdidin mənbəyi müəyyən edilərək qismən və ya tam aradan qaldırılır. Birinci seçim milli təhlükəsizlik strategiyası, ikinci seçim isə, beynəlxalq təhlükəsizlik strategiyasıdır.

Dissertasiya işində hərbi təhlükəsizliyin təmin olunması sisteminin vasitələri nəzəriyyədə ümumi qüvvə konsepsiyasının ekvivalenti kimi qəbul edilir. Burada həmçinin müasir strateji araşdırmalarda qüvvənin komponentlərinə münasibətdə müşahidə olunan yeni tendensiya da analiz edilir. Bu yanaşma tendensiyasına görə, qüvvənin iki ümumi komponenti var: sərt və yumşaq.

Hərbi təhlükəsizliyin təmini, adətən, güc ilə əlaqələndirilir. Belə ki, qüvvədən istifadənin ən çox görünən tərəfi güc tətbiqidir. Çünki təhlükəsizliyin təmin edilməsinin son vasitəsi müharibə, gücün fundamental məqsədi isə millətlərarası müharibələrdə döyüşmək və qələbə çalmaqdır. Çox vaxt gücün istifadəsi daha geniş çərçivədə həyata keçirilir və siyasi cəhətdən əhəmiyyətli olmaq üçün güc yalnız fiziki tətbiq olunmağa ehtiyac duymur. Hərbi gücün mövcudluğunun özü çox vaxt məqsədə nail olmaq üçün kifayət edir və dövlətin rəqabətdən daha çox əməkdaşlığa meyl etməsinə əsas verir.

Bu paraqrafda, həmçinin hərbi təhlükəsizlik probleminin mahiyyətini ifadə edən iki dilemma – müdafiə dilemması və təhlükəsizlik dilemması analiz edilir. Müdafiə dilemması dövlətin müdafiə naminə hazırlıqlarının dövlətin özünün yaşamasını, əhalinin rifah halını təhlükə altına alması vəziyyətidir. Təhlükəsizlik dilemması isə, dövlətin öz təhlükəsizliyini möhkəmləndirmək üçün istifadə etdiyi vasitələrlə başqa dövlətlərin təhlükəsizliyinə kölgə saldığı vəziyyətdir.

Hərbi gücə ehtiyac anarxiyanın nəticəsi olan beynəlxalq münasibətlərin özünəyardım təbiətindən irəli gəlir. Nə qədər ki, anarxiya mövcuddur, güc istər güclü, istərsə də zəif ölkələr üçün aralarında baş qaldıran münaqişələri həll etmək üçün son vasitə olaraq qalacaq.

Dissertasiya işinin ikinci fəsli **"Dövlətin xarici siyasəti və hərbi təhlükəsizlik məsələləri arasında əlaqələrin əsasları"** adlanır. Fəslin yazılmasında məqsəd dövlətin adı çəkilən iki fəaliyyət sahəsi arasında əlaqələrin əsasında duran amilləri müəyyən etmək və bununla onlar arasında qarşılıqlı münasibəti və asılılığı təyin etməklə, səmərəli siyasi fəaliyyət üsulları tapmaqdır. Tədqiqatçı elmi işin yazılmasının gedişində

aparılan araşdırmalar əsasında bu iki siyasi fəaliyyət sahəsi arasında əlaqələrinin üç əsasını müəyyən etmiş və fəslin üç paraqrafında bu əsasları ayrı-ayrılıqda elmi-fundamenatal şəkildə analiz etmişdir. Belə ki, fəslin ilk paraqrafı **"Hərbi doktrina və xarici siyasət dövlət strategiyasının tərkib hissələri kimi"** adlanır və burada dar mənada dövlətin xarici siyasətinin və ya diplomatik fəaliyyətinin hərbi doktrina ilə birlikdə dövlətin vahid xarici siyasət kursunu təşkil edən iki fəaliyyət sahəsi olduğu izah edilir. Beynəlxalq münasibətlərdə strategiya sənəti dövlətin xarici siyasətdə siyasi məqsədlərini təyin etmək, bu məqsədlərə müvafiq olaraq, fəaliyyət formasını, eləcə də hərbi hədəfləri müəyyənləşdirmək, qarşıda duran məqsədləri onlara nail olmaq üçün lazım gələn hərbi və siyasi tədbirlərə və onlara nail olduqdan sonra yaranacaq şəraitə görə dəyərləndirmək, tələblərə uyğun real və potensial ehtiyatları ölçmək və bu prosesdən çıxış edərək prioritetlərin və fəaliyyət kursunun əlaqəli sxemini qurmaqdır. Başqa sözlə, məqsədlərinə nail olmaq üçün dövlət ya sərt, ya da yumşaq üsullardan istifadə edir. Bir dövlət maraqlarını təmin etmək üçün hərbi güc tətbiq etmək və ya onunla hədələmək niyyətində olarsa, bu növ siyasət sərt fəaliyyət növü hesab edilir. Əgər bir dövlət maraqlarını təmin etmək üçün gücdən istifadə edə bilmirsə və ya buna ehtiyac hiss etmirsə, onun istifadə etdiyi digər vasitələr yumşaq siyasət üsullarıdır. bu iki fəaliyyət forması arasındakı bölgü şərtidir. Bu iki sahənin birini digərindən ayrı təsvir etmək qəbul edilməzdir. "Diplomatiya və strategiya çox nisbi anlayışlardır. Bir tamın iki hissəsi olan bu iki termin siyasət incəsənətinə, yəni "milli maraqlar" naminə dövlətlər arasında münasibətləri ən yaxşı formada idarə etmək incəsənətinə əlavədir." [28, s. 75] Bir dövlətin xarici siyasət məqsədlərini həyata keçirmək üçün bu iki üsuldan birinə üstünlük verməsi qarşıda duran məqsəddən, dövlətin daxili rejiminin xarakterindən, liderin sahib olduğu şəxsi keyfiyyət və bacarıqlardan, ölkə daxilində hərbi və mülki personal arasında əlaqələrin forma və səviyyəsində və dövlətin fəaliyyət göstərdiyi beynəlxalq sistemin xarakterindən asılıdır.

Göründüyü kimi dövlətin xarici siyasətində hərbi və siyasi-diplomatik fəaliyyəti onun xarici siyasətdəki məqsədlərinə nail olmaq üçün yürütdüyü vahid siyasi xəttin tərkib hissələridir ki, bu da dövlətin xarici siyasəti və hərbi təhlükəsizliyi arasındakı üzvi əlaqənin əsasında duran ilkin amildir.

Dövlətin siyasi diplomatik fəaliyyəti ilə hərbi təhlükəsizliyi arasında əlaqələri şərtləndirən digər bir amil dövlətin xarici siyasətini həyata keçirdiyi beynəlxalq sistemin xarakterindən irəli gələn hərbi təhlükəsizlik

problemləridir. Bu məsələ fəslin ikinci paraqrafında öz izahını tapıb. Paraqraf **"Beynəlxalq sistemlərdə və yeni dünya düzənində hərbi təhlükəsizlik məsələləri"** adlanır. Beynəlxalq anarxiya çərçivəsində təhlükəsizlik məsələləri yalnız dövlətlərin daxili xüsusiyyətləri ilə deyil, həm də beynəlxalq münasibətlər sisteminin strukturu və dövlətlərarası münasibətlər ilə şərtlənir. Ölkənin hərbi-siyasi durumunu analiz etmək üçün beynəlxalq sistemin ümumi strukturu və fəaliyyəti və dövlətin beynəlxalq sistemdəki mövqeyini də nəzərə almaq lazımdır. Beynəlxalq siyasət nəzəriyyəsi yalnız müəyyən aspektlərini özündə ehtiva etməsinə baxmayaraq, xalqların xarici siyasəti ilə əlaqəlidir. O, milli siyasətin hansı beynəlxalq şərtlərlə uyğunlaşmalı olduğunu izah edir. Müəyyən edilmişdir ki, beynəlxalq sistem səviyyəsində təhlükəsizlik problemlərinin mərkəzində dövlət – onunla beynəlxalq sistemin xarakteri arasında asılılığın forması və beynəlxalq sistemin anarxik olması durur. Müəllif sistemin fəaliyyətində qüvvələr nisbətinin konfiqurasiyası, sistemin yekcinsliliyi və ya müxtəlifliyi, eləcə də ikiqütblü və çoxqütblü beynəlxalq sistemlər və onların üstünlük və çatışmazlıqlarından bəhs edir.

Paraqrafda, həmçinin XX əsrin sonundan formalaşan yeni dünya düzənində hərbi təhlükəsizlik məsələlərinin təhlilinə də yer ayrılmışdır. Yeni yaranmış dünya düzənində dövlətlər beynəlxalq arenada tək deyillər və müxtəlif qeyri-dövlət aktorları bir çox obyektiv səbəblər ilə əlaqədar hər zaman dövlətlərin roluna öz təsirini göstərir. Yeni dünya düzənin digər bir xarakterik cəhəti suverenliyin müasir mərhələdə dövlətlərin ən güclü siyasi silahı olması, və bununla eyni zamanda beynəlxalq sistemin aktorlarının əlaqələrinin mühüm təyinedici amili olan beynəlxalq hüquq sistemi ilə bir araya sığmamasıdır. Yeni dünya düzəni qismən təkqütblüdür və bu qütbün sahibləri bu düzəni liberal adlandırırlar; və bu düzən demokratik sülh nəzəriyyəsi əsasında fəaliyyət göstərməlidir. Hər bir dövlət "bir tərəfdən parçalanma, digər tərəfdən isə böyüyən qloballaşma ziddiyyəti"[17] ilə xarakterizə olunan yeni dünya düzənində sistemə olan təhdidləri dərindən dərk etməli və imkan və fürsətləri dəyərləndirməyi bacarmalıdır.

Fəslin **"Dövlətlərarası münasibətlərdə hərbi təhdidlərin zərərsizləşdirilməsi istiqamətində həyata keçirilən fəaliyyət"** adlanan üçüncü paraqrafında dövlətlərin hərbi təhlükəsizliyi təmin etmək uğrunda həyata keçirdikləri birgə beynəlxalq fəaliyyətdən və onun formalarından bəhs edilir. Bu fəaliyyət dövlətin xarici siyasəti ilə hərbi təhlükəsizliyi

---

[17] Киссенджер Г. Дипломатия, перевод с англ. В.В.Львова, Москва, Ладомир, 1997, s. 15

arasında əlaqələrin digər təyin edici amilidir. Təhlükəsizlik əlaqəli bir fenomendir və dövlətlərin bir araya gələrək hərbi təhdidləri zərərsizləşdirmək məqsədilə tədbirlər həyata keçirməsi qaçılmazdır. Mövcud reallıqlar əsasında etiraf etmək lazımdır ki, müharibə qlobal təhlükəsizlik məsələsidir. Müharibələri dayandırmaq mümkün olmadığı üçün çıxış yolu tənzimləmələrdir. Təhlükəsizliyi təmin etmək məqsədilə dövlətlər beynəlxalq münasibətlərdə güc tətbiqini məhdudlaşdıra biləcək bir sıra konsepsiyalar işləyib hazırlayıblar. Müəllif bu paraqrafda dövlətlərin beynəlxalq sistemlər çərçivəsində hərbi təhlükəsizliyi təmin etmək üçün həyata keçirdikləri tədbirləri üç qrupda sistemləşdirib. Bunlar qüvvələr tarazlığı, kollektiv təhlükəsizlik və beynəlxalq hüquqdur. Bu üç fəaliyyət forması dövlətin siyasi diplomatik fəaliyyətinin tərkib hissələridir və dövlətin hərbi təhlükəsizliyinin təmin edilməsinə yönəldilib. Müəllif sözügedən paraqrafda bu fəaliyyət formalarının mənfi və müsbət tərəflərini və səmərəli fəaliyyət üçün tələb olunan şərtləri izah etməyə çalışmış və belə qənaətə gəlmişdir ki, bütün tənqidlərə qüsurlarına rəğmən, dövlətin beynəlxalq sistemdə gücdən istifadə ilə doğa biləcək təhdidləri zərərsizləşdirmək istiqamətində həyata keçirdiyi tədbirlərin əhəmiyyətini gözardı etmək heç bir halda düzgün siyasi yanaşma hesab oluna bilməz. O da qeyd olunmalıdır ki, onların səmərəli olub olmaması nəzəri cəhətdən səmərəsiz fəaliyyət formaları olmaları ilə deyil, konkret zaman kəsiyindəki şəraitdən və dövlətlərin bu üsullardan istifadədə nə qədər maraqlı olmasından asılıdır.

Dissertasiya işinin üçüncü fəsli **“Dövlətin hərbi təhlükəsizliyinin diplomatiya vasitəsilə təminatı məsələləri”** adlanır və burada hərbi təhlükəsizliyi təmin etmək üçün səmərəli üsulların tapılmasına cəhd edilmişdir. Hərbi təhlükəsizliyin yeganə alternativi dövlətlərin öz aralarındakı mübahisəli məsələləri və maraq toqquşmalarını diplomatik üsullarla həll etmələridir. Bu fəsildə diplomatiyanın bu istiqamətdə fəaliyyətinin xüsusiyyətləri və formaları öyrənilmişdir. İlk olaraq, fəslin **“Hərbi təhlükəsizliyin təmin olunmasında diplomatiyanın rolu”** adlanan birinci paraqrafında diplomatiya institutunun sülhü təmin etməkdə üzərinə götürə biləcəyi rol izah edilir. Diplomatiya dövlətin hərbi təhlükəsizliyinin təminatı sistemində milli qüvvənin ünsürlərindən biridir. O, qüvvənin müxtəlif ünsürlərini bütöv bir şəklə salıb, onlara istiqamət və təsir imkanı verir; milli qüvvənin mövcud imkanları çərçivəsində xarici siyasətin məqsəd və vasitələri arasında harmoniya yaradır. Paraqrafda hərbi təhlükəsizliyi təmin etmək baxımından diplomatiyanın vəzifələri müəyyən

edilir. Daha sonra bu vəzifələri həyata keçirmək üçün diplomatiyanın mövcud fəaliyyət formaları analiz edilir. Tədqiqatçı hərbi təhlükəsizliyin təminatçısı kimi diplomatiyanın rolunu daha yaxşı izah edə bilmək üçün hərbi təhlükəsizlik sahəsində diplomatik fəaliyyətin dörd dövrünü ayırır: dinc dövrdə, böhran vəziyyətlərində, hərbi əməliyyatlar zamanı və hərbi əməliyyatlardan sonra diplomatik fəaliyyət. Hərbi təhlükəsizliyin təmin olunmasında səmərəli ola bilmək üçün diplomatiya bir sıra prinsiplərə cavab verə bilməlidir. Müəllif diplomatik fəaliyyətə həsr olunmuş bir çox ədəbiyyatın təhlili yolu ilə bu prinsipləri müəyyənləşdirmək yolunda da araşdırmalar aparmış və nəticələr əldə etmişdir.

Yeni hərbi təhdidlər diplomatiyanın təhlükəsizliyi təmin etməkdə roluna dair optimist baxışlara son qoymuşdu. Lakin çox keçmədən məlum oldu ki, bu növ təhdidlər ilə mübarizədə də diplomatiya mövcud yeganə alətdir. Belə ki, adekvat və peşəkar şəkildə həyata keçirilən diplomatiya bütün anti-terror tədbirlərinin ümumi və əlaqəli şəkildə bir araya gətirilməsini təmin edir. Dövlətin qarşılaşdığı yeni hərbi təhdidlərə diplomatiya da özündə yeni ünsürlər ehtiva etməklə cavab verdi. Diplomatik fəaliyyət sferasının genişlənməsi onun səmərəlilik imkanlarını xeyli yüksəltmişdir.

Fəslin **“Hərbi təhdidlərin zərərsizləşdirilməsi sahəsində diplomatik fəaliyyət: əsas istiqamətlər və formalar”** adlanan ikinci paraqrafında müəllif belə bir qənaəti ilə çıxış edir ki, birbaşa hərbi təhlükəsizlik ilə əlaqəli diplomatik fəaliyyəti məntiqli olaraq güc ilə əlaqələndirməyə məcburuq. Çünki hər bir təhdid ilə mübarizədə görülən tədbir də adekvat olmalıdır.

Tədqiqat və müşahidələr göstərir ki, yeni dövrün diplomatik problemləri güc və diplomatiya məsələlərini vəhdət şəklində nəzərdən keçirməyi tələb edir. Çünki klassik diplomatiyada olduğu kimi, yalnız diplomatların edə biləcəkləri artıq çox məhduddur. Müəllifin araşdırmaları müəyyən edir ki, bu növ diplomatiya danışıqlar, qabaqlama, məcburiyyət diplomatiyası və gərgin olan münasibətlərin yaxşılaşdırılması və ya barışdırma formalarında həyata keçirilir. Hərbi strategiya artıq əvvəllər olduğu kimi qələbə çalmaq strategiyası kimi qəbul edilə bilməz. O, bugün məcburiyyət, hədələmək və önləmə ilə bərabərdir. Çünki müharibə alətləri indi daha çox cəzalandırıcıdır, nəinki qazanc gətirici. Biz qəbul etmək

istəsək də, istəməsək də, “hərbi strategiya zorakılıq diplomatiyası forması almışdır.”[18]

Bu prinsiplərdən çıxış edərək, qeyd olunan paraqrafda sülhə nail olmaqda diplomatik fəaliyyətin bir neçə növü nəzərdən keçirilir. Burada xüsusilə müasir strateji araşdırmaların da mərkəzində duran məcburiyyət diplomatiyasının analizinə geniş yer ayrılır. Müəllif məcburiyyət diplomatiyasının işləmə mexanizmini və onun fəaliyyətinin səmərəsini təyin edən şərtləri elmi müddəalar əsasında təhlil edir. Məcburiyyət diplomatiyasının alt-kateqoriyaları olan qabaqlama və vadaretmə, həmçinin barışdırma, hərbi diplomatiya kimi diplomatik fəaliyyət formaları da sülhə nail olmanın aləti kimi nəzərdən keçirilir.

Xarici siyasətdə hərbi təhlükəsizliyi təmin etmənin yollarından biri də dövlətlərin kollektiv özünümüdafiəsinin yaratdığı imkanlardan bəhrələnmək üçün siyasi-hərbi birliklər yaratmaq, onlara üzv olmaq və onların fəaliyyətində iştirak etməkdir. Dissertasiya işində bu növ birliklərdən ittifaq və koalisiyalarda dövlətlərin iştirakı təhlil edilir.

“Diplomatiya dünyanı bugün olduğundan daha təhlükəsiz edə bilər. Bunun üçün dövlətlər öz suverenliklərinin bir hissəsini ali dünya hökumətinə verməlidirlər.”[19] Diqqətlə araşdırılarkən məlum olur ki, hərbi qarşıdurmaların qarşısını almaq və dünyanı silahların gətirdiyi fəlakətlərdən xilas etmək üçün diplomatiyanın əlində bütün vasitələr var. Həmin vasitələrin fəaliyyət şəraiti də imkan verərsə, diplomatiyanın uğuru şübhəsizdir və o, bu işdə əvəzolunmazdır. Tarixdə müharibələrin qarşısının alınmasında diplomatiyanın uğur qazandığı, habelə uğursuzluğa düçar olduğu hallar çox yaşanıb. Əgər diplomatiya bu işdə uğursuzluğa uğrayıbsa, bu ona görə baş verib ki, heç kim onun uğurlu olmasını istəməyib.

**Nəticədə** ümumiləşdirmələr aparılmış, görülmüş işlərə yekun vurulmuş, müəllif hərbi təhlükəsizliyin təmin olunmasında siyasi-diplomatik fəaliyyətin yeri və roluna dair yekun müddəa və nəticələr ilə çıxış etmişdir.

---

[18] Schelling T.C. Arms and Influence, New Haven: Yale University Press,1966,s. 8

[19] Morgenthau H.J. Politics Among Nations: The Struggle for Power and Peace, 7th edition, revised byThompson, Kenneth W. and Clinton David W.,New York: McGraw-Hill-Higher Education, 2005, s. 567

**Dissertasiyanın əsas müddəaları nəşr edilmiş aşağıdakı məqalələrdə öz əksini tapmışdır:**

1. Hərbi təhdidlərin zərərsizləşdirilməsində diplomatiyanın rolu // Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal), 2012, № 4 (32), ss. 115-122
2. Hərbi gücün siyasi rolu / "Heydər Əliyev - 90" Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə əlaqədar Elmi-praktiki konfransın materialları, 26 aprel 2013-cü il, ss. 288-294
3. Dövlətlərarası münasibətlərdə hərbi təhlükəsizliyin təmin edilməsi cəhdləri // Azərbaycan Dövlət Dəniz Akademiyasının elmi əsərləri, 2013, № 1, ss. 218-226
4. The Role of Diplomacy in the military security system // Гілея, Науковий вісник, Українська Академія Наук, 2013, 74 (№ 7), Kiyev, pp. 383-385
5. Dövlətin hərbi təhlükəsizliyi və xarici siyasəti // Dövlət idarəçiliyi: Nəzəriyyə və təcrübə. Azərbaycan Respublikası Prezidenti yanında İdarəçilik Akademiyası, 2013, №3 (43), s.223-232
6. Məcburiyyət diplomatiyası // Dirçəliş XXI əsr, Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu, 2013, 179-179, ss.250-260
7. Siyasi realizmdə hərbi münaqişə məsələsi, Gənc Alimlərin əsərləri (siyasi elmlər seriyası), 2013, № 8, s. 190-196
8. Военная безопасность и внешняя политика государства // Філософия. Філософия права. Політологія. Соціологія, Національного університету «Юридична академія України імені Ярослава Мудрого», 2014, №1 (20), Харків «Право», сс. 121-134

**В.И.Захирова**

## Проблемы военной безопасности во внешней политике государства.

### Резюме

Диссертация посвящается теоритическому анализу отношений между двумя сферами активности государства - внешняя политика (дипломатическая активность) и военной безопасности.

Диссертация состоит из введения, трёх глав, заключения и списка использованной литературы.

Во введении описывается актуальность темы, показывается уровень исследование проблемы, определяются цели и обязанности исследования, и предоставляется информация о теоретико-методологических основах, ресурсной базе, научной новизне и практическую значимость исследования.

Первая глава «Теоритические аспекты внешней политики и военной безопасности государства» состоит из трёх параграфов. Первый параграф посвящён вопросам военной безопасности в политических теориях международных отношений. Второй параграф определяет военную угрозу национальной безопасности. В третьем параграфе автор описывает систему военной безопасности, место и роль дипломатии в ней.

Вторая глава, «Основы отношений между внешней политикой и военной безопасностью государства» состоит из трёх параграфов, и параграфы описывают каждую основу по отдельности. Параграфы определены как: Военная доктрина и внешняя политика (дипломатия), как две части единой политической линии государства; Проблемы военной безопасности в международной системе и новом мировом порядке; Объединённая активность государств в межгосударственных отношениях во имя военной безопасности.

Третья глава «Дипломатические способы обеспечения военной безопасности» посвящается роли дипломатии в достижении военной безопасности, а также определяет основные формы и направления дипломатии в этой роли. Глава состоит из двух параграфов.

В заключение содержится резюме работы и автор высказывает окончательные тезисы и результаты о роли политико-

дипломатической деятельности в обеспечении военной безопасности государства.

**V.I.Zahirova**

## The problems of military security in the foreign policy of state



### Summary

The thesis is devoted to the theoretical analysis of the relations between the two activity spheres of state – foreign policy, namely diplomatic activity and military security. The goal of the research is to determine the place and significance level of foreign policy in the military security environment, to define the determinants and basis of the relations between these two spheres and to study the new developments in these relations in the background of the challenges of security problems.

The dissertation consists of introduction, three chapters, conclusion and the list of used literature.

The introduction explains the actuality of the topic, finds out the study level of the problem, determines the goals and duties of the research, and provides information about the theoretic-methodological grounds, resource basis, scientific innovation and practical significance of the study.

The first chapter, "The foreign policy and military security of state: theoretical aspects", consists of three paragraphs. The first paragraph deals with the views on military security in political theories of international relations. The second paragraph defines the military threats to national security. In the third paragraph the authors describes the military security system and the place and the role of diplomacy in it.

The second chapter entitled "the basis of the relations between the foreign policy and military security of state" consists of three paragraphs and the paragraphs explain each base as the author defines them. The paragraphs are: military doctrine and foreign policy (diplomacy) as the two parts of unique political line of the state; military security problems in international systems and new world order; and the unite activity in interstate relations in the name of military security.

The third chapter, "The diplomatic ways of the provision of military security" deals with the role of diplomacy in achieving military security, as well determines the main forms and directions of diplomacy in this role. The chapter consists of two paragraphs.

The conclusion contains the summary of the work and the author states the final theses and outcomes on the role of politico-diplomatic activity in provision of military security of state.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ВУСАЛА ИБРАГИМ ГЫЗЫ ЗАХИРОВА**

# ПРОБЛЕМЫ ВОЕННОЙ БЕЗОПАСНОСТИ ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ ГОСУДАРСТВА

**5901.01 – Международные отношения**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по политическим наукам**

**БАКУ – 2014**